**Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin**

# FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909; Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 10 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə Əlavə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədən "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin," sözləri çıxarılsın;
2. 2-ci hissədə "Rabitə" sözündən əvvəl "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 dekabr 2013-cü il**